# "AZƏRBAYCAN MƏKTƏBİ"NİN ƏLAVƏSİ OLAN "KİMYA VƏ BİOLOGİYA TƏDRİSİ" MƏCMUƏSİNDƏ PEDAQOJİ—METODİKİ MƏSƏLƏLƏR

**Elnarə Məmmədova**

*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

"Yeni məktəb" və "Müəllimə kömək" kimi sələflərində olduğu kimi "Azərbaycan məktəbi"ndə də pedaqoji məsələlərlə yanaşı metodika elminə dair nəzəri və praktiki məsələlərə də geniş yer verilmişdir. Metodik işin təşkili jurnalın əsas qayğılarından biri olduğundan jurnalda məktəb tarixi, pedaqoji fikrin tarixi ilə yanaşı ayrı-ayrı fənlərin tədrisinə aid metodik məqalələr də dərc olunur və bunlar pedaqoji fəaliyyətin tərkib hissəsi kimi çıxış edirdi.

Müharibədən sonrakı illərdə elmi-pedaqoji fikir yetkinliyə doğru irəliləməyə başladı. Artıq vəziyyət dəyişildi, ölkədə məktəb təhsili məzmununun təkmilləşdirilməsinə, pedaqoji kadrların elmi-nəzəri, pedaqoji-metodik səviyyəsinin yüksəldilməsinə ciddi ehtiyac duyulurdu. Vəziyyət o dərəcəyə çatmışdı ki, yeganə pedaqoji jurnal bu tələbləri ödəyə bilmirdi. Ayrı-ayrı fənlərin metodik səviyyəsinin yüksəldilməsi məqsədilə "Azərbaycan məktəbi"nə əlavə kimi metodik məcmuələrin çapının zəruriliyi məsələsi qarşıya çıxmışdı.

Qeyd etmək lazımdır ki, o illərdə Azərbaycanda digər elm-təhsil sahələri kimi, kimya-biologiya fənlərinin metodikası sahəsində də xüsusi tədqiqat aparılırdı. Dövlət səviyyəsində proqram və dərsliklərin yeniləşdirilməsi məktəbdə kimya-biologiya kursunun tədrisinin zəruriliyini də qaçılmaz etdi və bu fənn üzrə proqramların işlənilməsi, dərs vəsaitlərinin hazırlanması qarşıya yeni tələblər qoyurdu. Bunlar bugünkü məsələ deyildi, hələ ötən əsrin 20-ci illərində Respublikada Xalq Maarif Komissarlığının təşəbbüsü ilə elmi-metodik şura yaradılmışdı. Bu şura az müddətdə müxtəlif fənlər üzrə proqramlar hazırladı, 4-5-ci siniflərin tədris planına "Təbiətşünaslıq" fənni salındı. Məktəb təcrübəsinin öyrənilməsi ilə əlaqədar 30-cu illərin sonundan başlayaraq kimyadan metodiki işlər yazılır, qabaqcıl təcrübə öyrənilir və təbliğ olunur, bunların məqalə şəklində nəşri günün tələbinə çevrilirdi. Ona görə də 1956-cı ildən etibarən "Azərbaycan məktəbi"nə əlavə kimi nəşr edilən "Kimya və biologiya tədrisi" məcmuəsi nəşr olundu. Tezliklə məcmuədə kimya, biologiya, ilk növbədə kimya kursunun müxtəlif mövzularının tədrisi metodikası, fənlərarası əlaqələrin yaradılması, qabaqcıl iş təcrübəsi, həmçinin bu sahədə aparılan tədqiqatlardan bəhs edən məsələlərə həsr edilən məqalələr çap olunmağa başladı.

Kimya və biologiya müəllimlərinin ən yaxın məsləhətçisi hesab olunan bu məcmuə ildə 4 dəfə buraxılır, hər buraxılışın həcmi 4,5 çap vərəqi olurdu.

Məcmuə orta məktəbin kimya və biologiya müəllimlərinə, habelə biologiya-kimya fakültəsinin müəllimlərinə əməli kömək göstərirdi. Məcmuə ali pedaqoji institutların və universitetin tələbələrinə də tanış idi. Burada Azərbaycanda kimya və biologiya elmlərinin inkişafına dair yazılan məqalələr oxucuları düşündürən suallara cavab verir, onların məcmuə ilə əlaqəsini daha da möhkəmləndirirdi.

Metodik məcmuələrin nəşrinə qədər fənlərin tədrisinə aid məqalələr “Azərbaycan məktəbi”ndə ayrıca rubrika altında verilirdi. Əlavələrin nəşrindən sonra jurnalın imkanları daha da genişləndi. Lakin bunlar jurnalda elmi-nəzəri, pedaqoji-psixoloji məsələlərin üstünlük təşkil etməsinə şərait yaratdı.

“Kimya və biologiya tədrisi” metodik məqalələr məcmuəsi “Azərbaycan dili və ədəbiyyat tədrisi” və “Fizika və riyaziyyat tədrisi” məcmuələrindən cəmi iki il sonra işıq üzü görmüşdü. Lakin məcmuə tezliklə kimya-biologiya üzrə ən yaxşı dərslərin uyğunlaşdırılmasında, səmərəliliyinin artırılmasında, müəllimlərin elmi-nəzəri, pedaqoji və metodiki səviyyəsinin yüksəldilməsində müəllimlərin yaxın köməkçisi oldu.

Məcmuə öz məqsədini elə birinci nömrədə bəyan etmişdir. Orada deyilirdi ki, təbiyyat və kimya fənlərinin tədrisində politexnik təlimin tətbiqi böyük və əhəmiyyətli yer tutur. Bu isə həmin fənlərin tədrisini yaxşılaşdırmağı tələb edir. Həmçinin təbiət və kimya müəllimlərinə istiqamətverici bir vəsait kimi bu məcmuə müəllimlərə metodik yardım göstərməklə bərabər bu elmlərin yenilikləri ilə də onları tanış etmək məqsədi güdür.

İldə 4 dəfə buraxılan “Kimya və biologiya tədrisi” məcmuəsinin qarşısında duran əsas vəzifə kimya və təbiyyat müəllimlərinin elmi və metodik səviyyəsini yüksəltməyə xidmət etməkdən ibarət idi. Bu məqsədlə məcmuədə Azərbaycan alimlərinin, qabaqcıl kimya və təbiyyat müəllimlərinin məqalələri ilə yanaşı, bəzən qardaş respublikaların iş təcrübələrinə və elmi əsərlərinə aid tərcümə materialları da çap olunurdu.

Məcmuə təbiyyat-kimya müəllimlərinin fəal iştirakı nəticəsində tezliklə metodiki məcmuə kimi özünü tanıda bildi.

Məcmuə ilk növbədə müəllimlərin elmi biliklərlə silahlanmasına kömək edirdi. Onun elə ilk nömrələrdən başlayaraq “Dövri sistemin bəzi mübahisəli məsələləri”, “Atom quruluşunun Kvant mexanikası əsasında izahı”, “Valentlik haqqında müasir təsəvvürlər”, “Elektromənfilik və kimyəvi əlavə” kimi elmi məqalələr də məhz bu məqsədlə yazılmışdır. Məcmuədə pedaqoji fikrimizin inkişafı yolları ilə bağlı yazılar da maraq doğururdu.

Məcmuədə dərc olunan məqalələrin elmi-pedaqoji səviyyəsi də qənaətbəxş idi. “Tədrisin səmərəliliyinin yüksəldilməsi yolları” adlı məqalədə (1989, №3) professor R.Əliyev tədrisdə tətbiq edilən təlim üsullarının təkmilləşdirilməsi, yeni səmərəli üsullardan istifadə edilməsi məsələsini qoyurdu. Müəllif yeni didaktik materialın şərhi zamanı şagirdlərin fəallaşdırılması tələbini də irəli sürürdü. O,

fikrini əsaslandırmaq üçün dövrün görkəmli pedaqoqlarını xatırlayır, akademik M.N.Skatkinin fikirlərinə istinad edirdi. Skatkin şagirdlərin müstəqil işini həyata keçirəndə onların axtarışa yönəldilməsini məsləhət görürdü. Müəllif özü də bu fikirlərlə tamamilə razılaşır və klassik təlim üsullarının təkmilləşdirilməsi ilə yanaşı tədris prosesində elmilik təmin edilməsini önə çəkirdi. Bütün bunlar üçün dərsin metodik cəhətdən yüksək səviyyədə qurulması da vacib şərt sayılırdı. Bunlar isə tədris prosesində şagirdlərin idrak fəaliyyətinin fəallaşdırılması ilə nəticələnirdi. Başqa bir məqalədə: "Tədqiqatçılıq və onun tətbiqi" (R.Babayev, F.Orucov) adlı yazıda təlim prosesində ümumi metodlarla yanaşı, hər bir fənnin özünəməxsus elmi metodlarından da geniş bəhs edilir. Müəlliflər yazırdı ki, "tədqiqatçılıq metodu şagirdlərin idrak fəaliyyətini gücləndirib inkişaf etdirmək, onlarda müstəqil olaraq qarşıda qoyulan problemi araşdırıb həll etmək bacarığını aşılamaq məqsədilə tətbiq edilir". Tədqiqatçılıq metodunun tətbiqində məsələ belə qoyulur: problem müəllim tərəfindən irəli sürülür, onun həlli isə şagirdlərə tapşırılır. Müəlliflər də burada pedaqogikanın tələblərinə sadiq qalır və ona yeni şərhlər verirdilər.







İllər keçdikcə məcmuənin keyfiyyəti yaxşılaşırdı. Məcmuənin səhifələrində çətin mövzuların mənimsənilməsinə ayrıca yazılar həsr olunurdu, dərslərin müasir tələblər səviyyəsində keçirilməsi üçün müəllimlərə məsləhət və tövsiyələr verilirdi. Pedaqoqların, psixoloqların, kimyaçı alimlərin, bioloqların işə qarışması nəticəsində tədris prosesinin effektliliyinin yüksəldilməsi üçün ən qabaqcıl müəllimlərin iş təcrübəsi öyrənilir, sonra ümumiləşdirilərək bütün respublika müəllimlərinə çatdırılırdı. Beləliklə də, alimlərin və metodistlərin məcmuədə dərc olunmuş məqalələri məcmuənin geniş oxucu tərəfindən rəğbətlə qarşılanmasına kömək edirdi.

Müəllimlər məcmuənin səhifələrində proqram materiallarının planlaşdırılması ilə tanış olur, sinifdənxaric oxunun təşkilinə dair yenilikləri oxuyur, müxtəlif tipli məsələ və misalların həlli yollarına dair şərhlər verirdilər. Məcmuənin səhifələrində müəllimlərə kömək edən belə məqalələr pedaqoji prinsiplərə əsaslandığı üçün metodik məcmuənin ana xəttinə tam uyğun idi.

"Fasiləsiz təhsil konsepsiyası və kimyanın tədrisi" adlı məqalədə (1990, №1) respublikada fasiləsiz təhsil konsepsiyası yaratmağın zəruriliyi məsələsi qoyulurdu. Müəllif yazırdı: "Fasiləsiz təhsil insanın ömrü boyu oxuyub öyrənməsi zərurəti kimi cəmiyyətimizin indiki kimi məktəbəqədər tərbiyə, ümumtəhsil məktəbinin, peşə, orta ixtisas məktəblərinin, ali təhsil müəssisələrinin, aspirantura, doktorantura və şəxsi təhsil sistemi kimi formalaşmasını nəzərdə tutur". Bunun üçün şəxsiyyətin hərtərəfli ahəngdar inkişaf etdirilməsini hər bir şəxsin həyatla ayaqlaşa bilmək qabiliyyətinin artırılması ilə bağlayır və hərtərəfli inkişafı təhsil sisteminin prinsipinə çevrilməsini nəzərdə tutur. Sonra məqalə müəllifi (R.Babayev) bu sahədə kimya müəllimlərinin qarşıda duran vəzifələrini bir-bir sayır və onun hər birinə ayrıca şərh verirdi.

"Kimyanın tədrisində fərdi yanaşmaya dair", "Kimyanın tədrisində evristik müsahibədən istifadə təcrübəsindən" (1978, №2), "Botanikanın tədrisində evristik tərbiyə məsələsinə dair" (1980, №3), "Kimya dərslərində fərdiləşdirmə yolu ilə şagirdlərlə iş aparmaq təcrübəsindən" (1980, №1) və başqa məqalələrdə də pedaqoji tələblərdən söhbət açılır, pedaqogikanın tələblərinin həyatda tətbiqinə geniş yer verilir və bununla da məcmuə pedaqoji fikrimizi məşğul edən problemlərə qoşulurdu.

Qeyd etmək lazımdır ki, kimya və biologiya üzrə bütün ixtisasları: qeyri-üzvi kimya, üzvi kimya, botanika, zoologiya, insanın anatomiya və fiziologiyası və gigiyenası, həmçinin ümumi biologiyanı əhatə edən məcmuənin maraq dairəsi getdikcə genişlənirdi. Məcmuənin oxucularının çoxalması da bununla bağlı idi. Məsələn, 1960-cı ildə məcmuənin tirajı 3100, 1970-ci ildə 9980, az sonra, yəni 1975-ci ildə 12000 nüsxəyə çatırdı. Məcmuənin ətrafına kimya, biologiya üzrə tədqiqat aparanlar, elmi iş yazanlar da toplaşmışdı. Tədqiqatçılar öz elmi-tədqiqat işlərinin nəticələrini, ilk növbədə, bu məcmuədə verməyə çalışırdılar. Bu da kimya və biologiya tədrisi üsulunun bir elm kimi inkişaf etməsinə kömək edirdi. Beləliklə də, məcmuə metodika elminin inkişafına öz töhfələrini verirdi. Bununla da məcmuə kimya-biologiya müəllimlərinin məsləhətçisi olmaqla yanaşı, eyni zamanda aspirant, dissertant və metodist-alimlərin apardığı tədqiqatları da sınaqdan keçirir, ən səmərəliləri ardıcıl təbliğ edirdi.

Bir sıra məqalələrdə yeni proqrama keçidlə əlaqədar ayrı-ayrı mövzuların tədrisi üsulunun işlənib hazırlanmasına, mövcud təlim üsullarının təkmilləşdirilməsi, kimya-biologiya proqramlarına daxil olmuş yeniliklərin mahiyyətinə də münasibət bildirilirdi. Ümumiyyətlə, kimya-biologiya tədrisinin

təkmilləşdirilməsi və onun effektliliyinin artırılmasına məcmuənin səhifələrində daha geniş yer verilirdi. Məqalələrdə fənlərarası əlaqələr də geniş işıqlandırılmışdır. Kimyanın fizika, riyaziyyat, biologiya ilə əlaqələndirilməsinə dair 40-dan çox məqalə yazılmışdır. "İnsanın anatomiya, fiziologiya və gigiyena kursunun tədrisində fənlərarası əlaqə" (1979, №1), "Kimyanın başqa fənlər ilə fənlərarası əlaqəsi" (1977, №1), "Biologiya dərslərində fiziki mühakimə" (1978, №1), "Kimyanın fizika ilə əlaqəli materiallarının ümumiləşdirilməsi təcrübəsindən" (1980, №4), "Biologiya dərslərində fənlərarası əlaqənin yaradılması" (1977, №2), "Təbiət fənlərinin tədrisində folklor nümunələrindən istifadə" (1977, №4), "Orta məktəbdə kimya və fizikanın əlaqəli tədrisinin bəzi məsələləri" (1976, №4) və başqa məqalələr də məhz bu məsələyə həsr olunmuşdur.

İllər keçdikcə məcmuənin əhatə dairəsi olduqca geniş və rəngarəng olurdu.

"Müasir dərs" adlı yazı (1977, №1) 8 səhifədən ibarətdir. Burada tədris prosesində müəllimin üzərinə düşən vəzifələrdən danışılır. Məqalədə deyilirdi ki, gənc nəsli kimya, biologiya elmlərinin əsasları ilə dərindən silahlandırmaq üçün təlim prosesi tam təkmilləşdirilməlidir, şagirdlərin təfəkkür fəaliyyəti, müstəqil mühakimə yürütmələri, qoyulmuş problemlərin həllində düzgün nəticə çıxarmaq bacarıqları inkişaf etdirilməlidir. Müasir dərsə verilən tələblərin ən mühümü olan təlim prosesində elmilik də bu prosesdə mərkəzi yerlərdən birini tutur. Müasir dərsdə şagirdlərin marağının ödənilməsi diqqət mərkəzində saxlanmalıdır. Şagirdlə dərs boyu məşğul olmaqda əsas məqsəd onların idrak fəaliyyətinin inkişaf etdirilməsi və müstəqilliyinin qüvvətləndirilməsidir. Şagirdlər özlərinin bütün qüvvələri ilə tədris prosesinə cəlb olunmalıdırlar. Onlar qarşıya çıxan çətinliklərin aradan qaldırılmasına yaradıcılıqla yanaşılmalıdır.

Məqalədə müasir dərsin qarşısında duran vəzifələr bir-bir izah olunur, dərsdə şagirdi düşündürən məsələlərin qoyuluşu ön plana çəkilir, müəllimdən böyük pedaqoji ustalıq tələb edən didaktik priyomlardan müntəzəm istifadə edilməsi məqsədəuyğun sayılırdı. Pedaqoji üsulların şərhindən sonra müəllimin vəzifələrindən danışılır və deyilirdi ki, müasir dərs və ona verilən tələblər müəllimin elmi-metodik səviyyəsinin yüksəldilməsini, onun axtarışlar aparmasını, yenilik hissi ilə nəfəs almasını tələb edir. Bunun üçün də müəllim öz peşəsini ürəkdən sevməli, ondan zövq almalı, sənətinin yüksək zirvəsində dayanmalıdır.

Zaman keçdikcə məcmuənin səhifələrində tanınan psixoloq və pedaqoqların, metodist alimlərin imzaları çoxalırdı. Belə ki, kimya və biologiya fənn müəllimlərinin metodik sahədəki ehtiyaclarına, onların öz ixtisaslarını təkmilləşdirmələri problemlərinə də toxunulurdu. Məktəblərdəki yoxlamalar və müşahidələr göstərirdi ki, məcmuənin işi hədər getmir. Bu da məcmuəyə gələn məqalələrdən də aydın görünürdü. Müəllimlər təlimin ən aktual problemlərindən yazır, nəzəri biliklərin zənginləşdirilməsinə kömək edirdilər. Artıq məcmuə

qabaqcıl təcrübə tribunasına çevrilirdi. Yerlərdə keçirilən oxucu konfransları da məcmuənin oxunaqlı olmağına öz təsirini göstərirdi.

Məcmuədə sırf pedaqoji mövzuda yazılan məqalələr də az deyildi. N.K.Krupskayanın pedaqoji irsindən istifadə edilməsinə dair məqalədə (1989, №4) təlim prosesinin mahiyyəti, məzmunu, üsulları barədə onun fikirləri şərh edilir, həmçinin fənlərin tədrisinə dair onun fikirlərinə söykənən müəllif qeyd edirdi ki, rus pedaqoqu 1937-ci ildə "Biologiyanın tədrisini lazımi səviyyəyə qaldırmaq" mövzusunda etdiyi çıxışda demişdir: "Biologiyanın tədrisini düzgün təşkil etmək üçün fənni yaxşı bilmək, onu başa düşmək lazımdır. Müəllim şablondan qaçmalıdır, faktlardan çıxış etməyi bacarmalı, nümayiş etdirmək yolu ilə canlı obrazlarla, faktlarla onları inandırmalı, faktlardan düzgün nəticə çıxarmağı öyrənməlidir". O tövsiyə edirdi ki, tədrisi düzgün təşkil etmək üçün ona əvvəlcədən hazırlaşmaq lazımdır. Məqalədə N.K.Krupskayanın pedaqoji irsinə qiymət verilir, müəllif təlimin həyatla əlaqələndirilməsi, ev tapşırığı vasitəsilə uşaqların müstəqil işə alışdırılması məsələlərinin üzərində dayanır və pedaqoqun aşağıdakı fikirlərini yada salırdı: "yalnız tapşırıqların yerinə yetirilməsi uçotu bu tapşırıqların yerinə yetirilməsi keyfiyyətinin uçotunu təşkil etdikdə evə dərs tapşırığı məqsədəmüvafiqdir". Müəllif sonra öz işindən nümunələr gətirir və bu təcrübənin nəticələrindən razı qaldığını bildirirdi.

"Kimya və biologiya tədrisi" məcmuəsində kimya və biologiya tədrisinin inkişaf yoluna dair məqalələr də elmi-nəzəri materialların ən dəyərli nümunələrindəndir. Məşhur kimyaçı alim Ə.Əbdürrəhimovun "Azərbaycanda kimya tədrisinin inkişafı tarixindən" məqaləsində (1957, №4) kimyanın bir fənn kimi Azərbaycan dilində tədrisinin XX əsrin 20-ci illərindən sonra başladığını qeyd edir. Məşhur rus alimləri M.V.Lomonosov, H.H.Zinin, A.A.Voskresenski, D.İ.Mendeleyev, A.M.Butlerev, L.D.Çuqayev, D.P.Kopovalov və b. yalnız kimyaçı olmamışlar, onların hər biri həm də dərs kitablarının müəllifi olmuşdur. Rusiya kimya tədrisi üsulunun tarixi M.V.Lomonosovdan başlanır. Azərbaycanda 1919-cu ildə universitet açılanda ilk dəfə kimyanın Azərbaycan dilində tədrisi məsələsi ortaya çıxır. 1933-cü ildən sonra Azərbaycanda bu sahədə nisbətən stabillik yaranır. Müəllif 15 səhifəlik bu məqalədə "Kimya terminologiyasının yaradılması", "Kimya proqramının tərtibi və nəşri", "Kimyadan dərsliklərin nəşri", "Azərbaycanda kimyadan pedaqoq və tədqiqatçı alimlərin yetişdirilməsi məsələləri"ndən danışır, ana dilində kimya dərslərini aparan professor S.Hüseynov, S.Əliyevin xidmətlərini xüsusi qeyd edir. S.Hüseynov Azərbaycan kimya tarixində kimyanın banilərindən biri hesab olunur.

"Azərbaycanda kimya və biologiyanın tədrisi metodikasının inkişafına dair" məqalədə (müəllif R.Babayev) göstərilir ki, respublikada kimya tədrisi metodikası elminin inkişafı professor Ə.Əbdürrəhimovun adı ilə bağlıdır. O, kimya metodikası sahəsində fundamental tədqiqatlar aparmaqla gənc alimlərin

yetişdirilməsi sahəsində çox mühüm işlər görmüşdür. Respublikada kimya və biologiyanın tədrisi metodikasının inkişafı 1966-cı ildən sonra yeni vüsət almışdır. Bu fənlərin tədrisi metodikası sahəsində gənc alimlər yetişirdi, onlar ciddi şəkildə yeni proqramlarla işləyən müəllimlərin iş təcrübəsinin öyrənib, ümumiləşdirilməsi ilə məşğul olur, təlim metodlarının genişləndirilməsi sahəsində köklü və ardıcıl iş aparmağa başlayırlar. Bu sahədə tədqiqat aparan metodist alimlərdən professorlar R.Əliyev, F.Əliyev, Ə.Salahov, R.Babayev, T.Abdülkərimov, Ə.Hüseynov, Ə.İmaməliyev və b. öz məqalələri ilə məcmuənin metodiki bazasını daha da zənginləşdirirdilər. Tədqiqata cəlb olunmuş rayon müəllimləri də fərqlənirdi. M.Quliyev, T.Mahmudov (Tovuz), Q.Tağıyev (Ordubad), V.Qurbanov (Masallı), E.Ağayev (Lerik), H.Hacıyev (Balakən) və b. sanballı məqalələrlə metodika elmimizə yeni çalarlar gətirirdilər.

"Kənd məktəblərində kimya tədrisinin bəzi xüsusiyyətləri" (1976, №1) adlı redaksiya məqaləsində kənd məktəblərində kimya dərslərinin səviyyəsinin yüksəldilməsi yollarından bəhs edir və kimya dərslərində təcrübə məşğələlərinə fikir verilməsinə diqqəti cəlb edir. Burada məktəb laboratoriyalarının zənginləşdirilməsi məsələsinə də toxunulur. O illərdəki məktəbyanı tədris-təcrübə sahələrindən söz açılır. 20 maddədən ibarət göstərişlərdə kənd məktəblərində kimyanın tədrisinin yaxşılaşdırılmasına dair müxtəlif tövsiyələr də verilirdi. Məqalə belə yekunlaşdırılırdı ki, müəllimlər kimya elmi və onun tədrisi üsuluna dair ədəbiyyatı izləməli, öz biliklərini zənginləşdirməli və metodik səviyyəsini yüksəltməlidirlər.

Məcmuənin redaksiyası Moskvada nəşr olunan "Biologiya v şkole" jurnalının redaksiyası ilə əlaqə saxlayırdı. Jurnalın baş redaktoru N.M.Pojaritskaya ilə redaksiyada görüş keçirilmişdi. Pojaritskaya məlumat vermişdir ki, "Biologiya v şkole" jurnalı 1927-ci ildən fəaliyyət göstərir. Təcrübəli metodist, əməkdar müəllim Əyyub İmaməliyev o jurnalın redaksiya heyətinin üzvü idi. Jurnala Azərbaycandan da məqalələr daxil olurdu. Bu barədə jurnalın 1981-ci il 3-cü nömrəsində ətraflı məlumat verilmişdir.

Beləliklə, Azərbaycan oxucuları üçün maraqlı olan bu görüşdə o da qeyd edilmişdir ki, kimya və biologiya müəllimləri öz məcmuəmizdən də bacarıqla istifadə edir, şagirdlərin kimya, biologiya dərslərində əldə etdikləri bilikləri dərinləşdirir, onların qarşıya qoyulan məqsədə tez nail olması işini asanlaşdırır və təhsilimizdə əldə olunacaq böyük müvəffəqiyyətlərin təməlini qoyurdular.

Araşdırmalar göstərir ki, kimya-biologiya dərslərində şagirdlər öyrəndikləri mövzular üzrə bilik, bacarıq və vərdişlərin formalaşdırılması və inkişaf etdirilməsində məcmuə mühüm rol oynamışdır. Fəaliyyət göstərdiyi 35 ildə məcmuə "Azərbaycan məktəbi"nin əlavəsi kimi onun qarşısında qoyulan məqsədə, yəni pedaqoji fikrimizin formalaşması ilə paralel inkişaf edən metodik işin canlanmasına xeyli kömək etmişdir. Pedaqoji fikrimizin, metodiki elmimizin

keçdiyi tarixi yola dair "Kimya və biologiya tədrisi" məcmuəsində zəngin material vardır və o indi də pedaqoji irsimizin ən etibarlı məxəzlərdən biridir.

**İstifadə edilmiş ədəbiyyat:**


1. "Kimya və biologiya tədrisi" məcmuəsi. 1956-1990-cı illər.
2. Əbdürrəhimov Ə. Azərbaycanda kimya tədrisinin inkişafı tarixindən. "Kimya və biologiya tədrisi" məcmuəsi. 1957, №4.
3. Abbasov B., Məhərrəmov A., Abbasov M. Və b. Kimya. XI sinif üçün dərslik. Bakı:Təhsil, 2009.
4. Əliyev R. Kimya və biologiya tədrisi. "Kimya və biologiya tədrisi" məcmuəsi , 1976, №10.
5. Əliyev R. Tədrisin səmərəliliyinin yüksəldilməsi yolları. "Kimya və biologiya tədrisi" məcmuəsi, 1989, №3.
6. Mərdanov M. Azərbaycan təhsili. II cild. Bakı, 2004.
7. Əliyeva Z. Xalq maarifimizin salnaməsi. "Azərbaycan məktəbi" jurnalı, 1984, №4.
8. Əliyeva Z. Azərbaycan təhsilinin, pedaqoji elminin təfəkkür xəzinəsi. "Azərbaycan məktəbi" jurnalı, 1999, №6.
9. Nəcəfov N. Ən uzun ömürlü jurnal. "Azərbaycan məktəbi" jurnalı, 2010, №1.
10. Müasir dərs. "Kimya və biologiya tədrisi" məcmuəsi, 1977, №1.
11. Babayev R. Azərbaycanda kimya və biologiyanın tədrisi metodikasının inkişafına dair. "Kimya və biologiya tədrisi" məcmuəsi, 1982, №4.
12. Babayev R. Fasiləsiz təhsil konsepsiyası və kimyanın tədrisi. 1990, №1.
13. Kənd məktəblərində kimya tədrisinin bəzi xüsusiyyətləri. "Kimya və biologiya tədrisi" məcmuəsi, 1976, №1.
14. Ağayev E. Kimya dərslərində şagirdlərin idrak nəzəriyyəsi məsələləri ilə tanış edilməsi təcrübəsindən. "Kimya və biologiya tədrisi" məcmuəsi, 1978, №4.

*Э.Мамедова*

**Сборник «Преподавание по химии и биологии» приложение «Азербайджан мектеби»**

**РЕЗЮМЕ**

В статье повествуется, о деятельности сборника «Преподавание по химии и биологии» в приложении журнала «Азербайджан мектеби», который оказал влияния в формировании педагогической мысли в Азербайджане. Сборник издавался в 1956-1990 г.г. В сборнике выступали ученые, методисты, психологи, педагоги и учителя. Статьи помогали развитию педагогический мысли, тем самым оказывали научно-практическую помощь.

*E.Mammedova*

**Pedagogical and Methodological Issues in the Appendix of the "Azerbaijan School Journal "Teaching Chemistry and Biology"**

**SUMMARY**

The article is dedicated to the pedagogical activity of appendix of the "Azerbaijan School" Journal: "Teaching Chemistry and Biology" which played great role in the formation of pedagogical thought in Azerbaijan. The Journal was published during 1956-1990s. Periodical issued articles written by the well-known pedagogues, psychologists and methodologists of the time, made a huge contribution to the pedagogical thought of Azerbaijan and were useful from scientific –practical point of view.

**Açar sözlər:** məcmuə, metodiki iş, qabaqcıl təcrübə, tədris.

**Ключевые слова:** сборник, ученые работники, передовой опыт, преподавание.

**Key words:** collection, scientific worker, advanced experience, training.